# *Balayar Sadiq -50*



Hörmətli Balayar Sadiq!

Sizi - istedadlı şairimizi 50 yaşınızın tamam olması münasibətilə təbrik edirik.

Siz bədii yaradıcılığa ötən əsrin səksəninci illərində başlamısınız. İlk qələm təcrübələriniz mətbuatda dərc olunmuş, ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır. Əsasən vətənpərvərlik mövzusunda yazılmış «İgidliyin Bəxtiyar zirvəsi», «Ömrün hünər nəğməsi», «Arzumanın döyüş yolu», «Sərkərdə ömrünün işığı», «Müdrikliyin zirvəsi», «Hünər simfoniyası», «Vətən ətirli ömür», «İşıqlı adam» və s. kitabların müəllifisiniz. Publisistik və ədəbi - tənqidi məqalələrinizlə ədəbi prosesdə fəal iştirak edirsiniz. Uzun illər pedaqoji fəaliyyət göstərmisiniz. Könüllü olaraq Qarabağ müharibəsində döyüşmüsünüz. Ədəbi uğurlarınıza görə Rəsul Rza adına Ədəbiyyat Fondunun Rəsul Rza mükafatına layiq görülmüsünüz.

Hörmətli Balayar Sadiq!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, cansağlığı və yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**